# Hacıqabul Rayon Ağsaqqallar Şurasının hesabat konfransı keçirilib

**Hacıqabul Rayon YAP Ağsaqqallar Şurasının hesabat konfransı keçirilib. Konfransda Hacıqabul RİH-in başçısı Sevindik Hətəmov, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Milli Məclisin Səhiyyə komitəsinin sədri, millət vəkili, akademik Əhliman Əmiraslanov, şuranın aparat rəhbəri Ramin Həsənli, rayon Ağsaqqallar Şurasının sədri Sahib Aslanov, eləcə də rayon ağsaqqalları, ziyalıları, idarə, təşkilat rəhbərləri və ictimaiyyətin digər nümayəndələri iştirak ediblər.**



Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar. Sonra Ümummilli Liderin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Hacıqabul rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov konfrans iştirakçılarını salamlayaraq rayonun ictimai-siyasi həyatında ağsaqqalların rolundan, rayonda ağsaqqalların nüfuzunun artmasından söz açıb. Rayon Ağsaqqallar Şurasının ötən dövrdəki fəaliyyətini müsbət qiymətləndirib.

Konfransda hesabat məruzəsi ilə çıxış edən rayon Ağsaqqallar Şurasının sədri Sahib Aslanov Prezident İlham Əliyevin uğurlu xarici və daxili siyasətindən danışaraq qeyd edib ki, müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi inkişaf strategiyası böyük müdriklik və uzaqgörənliklə davam etdirilir və bunun nəticəsində ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrəti, eləcə də beynəlxalq nüfuzu günbəgün artır.

Konfransda çıxış edən rayon ağsaqqalları Şükür Məmmədov, Əhməd Ağayev və Süleyman Bəşirov Prezident İlham Əliyevin torpaqlarımızın ərazi bütövlüyünün təmin edilməsində, işğal olunmuş ərazilərdə yenidənqurma və abadlıq işlərinin aparılmasında əvəzsiz fəaliyyətindən bəhs ediblər. Natiqlər son illərdə Hacıqabul rayonunda ağsaqqalların gündən-günə artan səmərəli fəaliyyətindən, rayonun ictimai-siyasi həyatında ağsaqqalların artan nüfuzundan söz açıb və şuranın ötən dövrdəki fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.

Sonra çıxış edən Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Milli Məclisin Səhiyyə komitəsinin sədri, millət vəkili, akademik Əhliman Əmiraslanov respublikamızın ictimai-siyasi həyatındakı mövcud vəziyyəti geniş təhlil edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan iqtisadi islahatlardan, uğurlu daxili və xarici siyasətdən danışıb. Həmçinin cəmiyyətimizdə mövcud olan problemlərin qarşısının alınmasında ağsaqqalların əvəzolunmaz rolunun olduğunu qeyd edib və bu işlərdə ağsaqqalları daha aktiv olmağa çağırıb.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 16 sentyabr (№ 197).- S.11.